*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (3) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:26.02.2025*
*Kabul tarihi |Accepted:15.04.2025*
*Yayın tarihi |Published:25.06.2025*

**Aynurə Əfəndiyeva**

***https://orcid.org/0009-0007-3276-1524***
*Teacher at Sumgayit State University; Dissertation candidate Institute of History and Ethnography named after A. A. Bakikhanov of Azerbaijan National Academy of Sciences, Azerbaijan, efendiyeva82@inbox.ru*

***Atıf Künyesi | Citation Info***

Əfəndiyeva, A. (2025). Fətəli Xan (1758-1789) Dövründə Quba Xanlığının (1726-1806) Cənubi Qafqazda Hərbi-Diplomatik Mövqeyinə Dair. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (3), 270-284.

# Fətəli Xan (1758-1789) Dövründə Quba Xanlığının (1726-1806) Cənubi Qafqazda Hərbi-Diplomatik Mövqeyinə Dair*

***Öz***

*XVIII əsrin ikinci yarısı bir tərəfdən Qafqazdakı dövlət qurumları arasında olduqca mürəkkəb və keşməkeşli münasibətlərin mövcud olduğu, digər tərəfdən isə iri bölgə dövlətlərinin Cənubi Qafqaz uğrunda mübarizəsi dövrüdür. Bölgədəki mövcud mürəkkəb duruma, rus-gürcü ittifaqının törətdiyi maneələrə baxmayaraq, qubalı Fətəli xan Azərbaycan torpaqlarının vahid dövlət şəklində birləşdirilməsi istiqamətində ciddi cəhdlər göstərmişdi. XVIII əsin ikinci yarısında Azərbaycan torpaqlarını birləşdirilməsi təşəbbüslərinin ən uğurlusu məhz Fətəli xan (1758-1789) tərəfindən həyata keçirilmiş, şimal-şərqi Azərbaycan torpaqları Quba xanlığına (1726-1806) tabe edilməklə xanlığın iqtisadi və hərbi-siyasi gücü daha da artmışdı. Rus-burjua tarixçisi, akademik P. Q. Butkov "1722-1803-cü illərdə Qafqazin yeni tarixi üçün materiallar" əsərində Quba xanlığı haqqında geniş məlumat vermış, Fətəli xanın xarici siyasətinə, Rusiya ilə münasibətlərinə xüsusi yer ayırmışdı. Məqalədə arxiv sənədləri, ilkin qaynaqlar və problemə dair mövcud tarixi ədəbiyyatın verdiyi məlumatlar əsasında Qubalı Fətəli xanın son dərəcə mürəkkəb bir geosiyasi durumda hərbi-diplomatik fəaliyyət problemi araşdırılır.*

***Açar sözlər:*** *Şimal-şərqi Azərbaycan, Fətəli xan, Dərbənd, Quba xanlığı, Cənubi Qafqaz, Dağıstan feodal hakimləri*

---

* *Bu məqalə P. Q. Butkovun "1722-1803-cü illərdə Qafqazın yeni tarixi üçün materiallar" əsəri əsasında.*

Creative Commons Licence BY NC

# On the military-diplomatic position of the Guba Khanate (1726-1806) in the South Caucasus during the reign of Feteli Khan (1758-1789)

***Abstract***

*The second half of the 18th century was a period of extremely complex and turbulent relations between the state structures in the Caucasus on the one hand, and the struggle of large regional states for the South Caucasus on the other. Despite the complex situation in the region and the obstacles created by the Russian-Georgian alliance, Fatali Khan of Guba made serious attempts to unite the Azerbaijani lands into a single state. In the second half of the 18th century, the most successful attempt to unite the Azerbaijani lands was made by Fatali Khan (1758-1789), who subordinated the northeastern Azerbaijani lands to the Guba Khanate (1726-1806), which further increased the economic and military-political power of the khanate. In his work 'Materials for a New History of the Caucasus 1722-1803', the Russian*-bourgeois historian, academician P.G. Butkov provides comprehensive information about the Guba Khanate and pays special attention to the foreign policy of Fatali Khan and his relations with Russia. Based on the information provided by archival documents, primary sources and the available historical literature on the problem, the article analyses the problem of military-diplomatic activity of Fatali Khan in an extremely complex geopolitical situation.*

***Keywords:*** *Northeast Azerbaijan, Fatali Khan, Derbent, Guba Khanate, South Caucasus, Dagestan feudal rulers*

## Giriş

Qubalı Fətəli xan XVIII əsr Azərbaycan tarixi personajları qalereyasında heç kimlə müqayisə olunmayan mövqe sahibidir. Məsələ təkcə Fətəli xanın birləşdirici missiyası ilə məhdudlaşmır. Əlbəttə, Nadir şah Əfşarın ölümü ilə meydana gəlmiş çoxsaylı Azərbaycan xanlıqları arasında inteqrativ fəaliyyətdə olanlar az olmamışdır. Lakin siyasi pərakəndəliyin və hərcmərcliyin içərisində bir düzən yaratmaq vəzifəsini strateji məqsəd səviyyəsinə qaldıran məhz Fətəli xan Qubalı olmuşdur. Məhz Fətəli xan ətraf xanlıqları və hakimlikləri öz xanlığına qatmaqla, sadəcə hökmranlıq etdiyi məkanın ərazicə böyüməsindən daha çox dayanıqlı və institusional baxımdan qüdrətli bir dövlət təşəkkülünə can atırdı.

Rusiya və Osmanlı imperiyaları arasında münasibətlərin kəskinləşməsi nəticəsində yaranan və 1768-1774-cü illərdə davam edən kəskin beynəlxalq böhran ilə xarakterik olan XVIII əsrin ikinci yarısı, eyni zamanda Qafqazda ayrı-ayrı xanlıqlar və Dağıstanın feodal hakimlikləri arasında gedən aramsız daxili ara müharibələri, çar Rusiyası, Osmanlı dövləti və İranın bu diyar uğrunda mübarizəsi kimi son dərəcə dramatik hadisələrin cərəyan etdiyi bir dövrdr. Bu dövr qafqazşünas alim P. Q. Butkovun əsərlərində geniş şəkildə təsvir olunmaqla təqdim olunan məqalədə onun əsərlərinin verdiyi məlumatlar əsasında Qubalı Fətəli xanın Azərbaycan torpaqlarını birləşdirmək uğrunda apardığı hərbi-siyasi mübarizəsi təhlil olunur.

## 1. 1760-70-ci illərdə Qubalı Fətəli xanın Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizəsi

XVIII əsrin II yarısında Azərbaycanda vahid mərkəzləşdirilmiş dövlət mövcud deyildi; feodal pərakəndəliyi dönəmini yaşayan Azərbaycan xırda dövlət qurumlarına – müstəqil xanlıqlara və sultanlıqlara parçalanmışdı. Bu baxımdan sözügedən zaman kəsiyində ayrı-ayrl feodal hakimliklər arasında münasibətlər əsasən feodal pərakəndəliyi dövrü üçün səciyyəvi olan güclünün zəifi itaətə gətirmək uğrunda mübarizəsi ilə müəyyənləşirdi; bu zaman çeşidli amillər bu dövlətlərin müxtəlif qruplaşmalarda birləşməsini labüd edirdi. Bu, qonşu xanlıqları özünə tabe etməklə güclənməkdə olan Fətəli xanın siyasi fəaliyyəti, daha sonra isə güclənmiş Quba xanına qarşı Qafqazın iri və nüfuzli feodal hakimliklərinin iştirakı ilə müxtəlif hərbi-siyasi koalisiyaların yaradılmasında özünü göstərirdi.

İri dövlətlərin bölgə uğrunda mübarizəsi bütün dövrlərdə bütövlükdə Şərqi Qafqaz üçün mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik olan Dərbənd ətrafında cərəyan etdiyi üçün Fətəli xanın bütöv Azərbaycan dövləti yaratmaq istiqamətindəki fəaliyyəti hakimiyyətinin ilk dönəmində məhz mühüm strateji əhəmiyyətli bölgə kimi Dərbəndin Quba xanlığına birləşdirilməsi ilə başlamışdır. Fətəli xan hələ hakimiyyətinin ikinci ilində, 1759-cu ildə qonşu Dağıstan hakimlərindən Qaraqaytaq Usmisi (Usmi Dağıstanın Qaraqaytaq feodal dövlətinin hakimlərinin tituludur) Əmir Həmzənin köməyi ilə ərazisi və əhalisinin kiçik olmasına baxmayaraq strateji və iqtisadi cəhətdən əhəmiyyət kəsb edən Dərbənd xanlığını ələ keçirdi (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465, s.6).

Rus burjua tarixçisi, akademik P. Q. Butkov Fətəli xanın Dərbənd yürüşü barədə yazır: “*Dərbənd əhalisi xan hakimiyyətindən narazılıq edirdi. Narazılığın əsas səbəbi, xan tərəfindən əhalidən həddindən artıq vergi tələb olunması və bu vergiləri ödəyə bilməyənlərin ciddi şəkildə cəzalandırılması idi. Mövcud vəziyyət əhalinin narazılığını artırmış və nəticə etibarilə onlar Fətəli xana müraciət edərək yardım istəmişdilər*” (Butkov, 1869, c. I, s. 250).

P.Q.Butkov Fətəli xanın Dərbəndi diplomatik hiylə ilə ələ keçirdiyini bildirərək öz fundamental əsərində qeyd edir ki, o, guya müəyyən danışıqlar aparmaq bəhanəsi ilə Məhəmməd Hüseyn xanı az sayda müşayiətçi ilə birlikdə öz düşərgəsinə dəvət etdi. Daha sonra onu həbs edərək gözlərini çıxartdı və əvvəlcə Qubaya, sonra isə beş yaşlı oğlu Əli bəylə birlikdə Bakıya göndərdi. Məhəmməd Hüseyn xan 1768-ci ilə qədər orada, Fətəli xanın 1767-ci ildə kürəkəni olmuş Bakı xanı Məlik Məhəmməd xanın himayəsində həbsdə saxlanıldı və həmin il orada vəfat etdi (Butkov,1869, c. I, s. 250).

Fətəli xan Dərbəndi ələ keçirdikdən sonra müttəfiqləri ilə birlikdə xan sarayını və Məhəmməd Hüseyn xanın bütün əmlakını qarət etmiş və əldə olunan qənimətləri aralarında bölüşdürmüşdülər. Bununla yanaşı, Fətəli xan müttəfiqlərinə — Şamxala, Usmiyə və Qaziyə — göstərdikləri hərbi-siyasi xidmətlərə görə Quba və Dərbənd xanlıqlarına məxsus bəzi kəndlərdən (icarə formasında) gəlir əldə etmək hüququ vermişdi. Belə ki, Şamxal altı kənddən, Usmi isə Dərbənd xanlığında yerləşən bir kənddən gəlir əldə edirdi. Bundan əlavə, Usmi Dərbənddən toplanan gömrük rüsumlarını da yığmaq səlahiyyətinə malik idi. Qeyd edilən bu imtiyazlar müttəfiqlər tərəfindən 1796-cı ilədək istifadə olunmuşdur (Butkov,1869, c. I, s. 250-251).

Dərbəndi Quba xanlığına birləşdirən Fətəli xan özünün Azərbaycanı vahid, güclü mərkəzləşdirilmiş dövlət şəklində birləşdirmək iddiasını hələ hakimiyyətinin ilk dönəmindən ortaya qoydu. Fətəli xan 1766-cı ildə Dağıstanın nüfuzlu və güclü feodal hakimliklərindən olan Qaraqaytaq usmisinin bacısı Tuti Bikəni alaraq onun timsalında güclü müttəfiq əldə edir. Fətəli xanın bacısı Xədicə Bikəni Usmiyə verməkdən imtina eləməsi isə yenicə qohum olmuş iki güclü feodal hakimin arasında uzunsürən düşmənçiliyə səbəb olur. Bir qədədr sonra Usmi Əmir Həmzə bacısını görmək bəhanəsi ilə Dərbənd qalasına girib onu zəbt edə bilsə də, Fətəli xan dərbəndlilərin də yardımıyla Qubadan topladığı qüvvə ilə Usmini Dərbənddən çıxara bilir (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465).

Bu haqda məlumat verən P. Q. Butkov yazır: “*Avar xanı Mersel-Xan (Məhəmməd Nutsal) — Ümmə (və ya Ömər) xanın atası — bu bölgənin xanları arasında davam edən narazılıqlara son qoymaq məqsədilə Dərbəndə gəldi. O, Usmiyə Dərbəndi öz nəzarəti altında saxlamağın nə qədər çətin olduğunu izah edərək onu şəhərdən çıxmağa razı saldı. Usmi Dərbəndə iki həftəlik sahiblik etdikdən sonra şəhəri tərk etdi. Mersel-Xan bundan sonra onu Fətəli xanla barışdırdı. Lakin Fətəli xan Usmini Dərbəndin gömrük gəlirlərindən məhrum etdi, yalnız Dərbənd xanlığına aid bir kəndin gəlirini onun xeyrinə saxladı*” (Butkov, 1869, c. I, s. 252).

Fətəli xan daha sonra qüvvələrini Şəki xan Hüseyn xanla ittifaqda olan Şirvan xanlığı kimi tanınan Şamaxıya qarşı yönəltdi. İlk yürüşün uğursuzluqla nəticələnməsinə baxmayaraq Hüseyn xanı öz tərəfinə çəkə bilən Fətəli xan bakılı Məlik Məmməd xan və Şəki xanı Hüseyn xanla ittifaqda Akuşa, Tabasaran, Dərbənd və Quba əhalisindən ibarət böyük qüvvə ilə Şirvani tutmaq məqsədilə növbəti dəfə yürüşə başlayır (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465).

Nəticədə 1768-ci ilin yayında qərbdən və şərqdən eyni vaxtda hücuma keçərək Şamaxını ələ keçirir. Şamaxını idarə edən qardaşları əsir alan Fətəli xan sonralar Məhəmməd Səid xanı Dərbənd zindanına saldı, daha gənc və daha enerjili bir rəqib hesab edərək Ağası xanın isə

gözlərini çıxartdırdı. Müqaviləyə əsasən, Şirvan xanlığı Fətəli xan və Hüseyn xan arasında onların təyin etdikləri naibləri tərəfindən idarə olunan hissələrə bölünsə də çox keçmədən Fətəli xan Hüseyn xanın naibini Şamaxıdan qovdu və bütün Şirvanı ələ keçirdi (Bakixanov, 1991 ; Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465).

Bu hadisədən sonra əvvəlki müttəfiqlər rəqiblərə çevrildilər. Məhz bu səbəbdən də Fətəli xan Şəki xanlığına yürüş hazırlıqlarına başlayır. Bu məqsədlə müttəfiq axtarışında olan Fətəli xan Kartli-Kaxetiya çarı II İrakli və Qarabağlı İbrahim xana onunla ittifaqda çıxış etməyi təklif edir. Bu barədə 1768-ci il sentyabrın 10-da Fətəli xanın planlarını aydınlaşdırmaq üçün Şirvana göndərilən rus konsulluğunun məmuru İ. Matveyev, Həştərxan taciri S. Şarıpin və katib E. Zamyatin Fətəli xanın təklifi barədə rus konsulu Sulyakova məruzə etdilər (Abdullayev, 1958). Lakin qonşuluğunda güclü dövlətin yaranmasından ehtiyat edən İbrahim xan və Azərbaycan torpaqlarına münasibətdə məkrli niyyətləri olan II İrakli onun təklifinə səs vermirlər. Çünki Fətəli xan Azərbaycan xanlıqlarından Gəncə və İrəvana münasibətdə işğalçılıq yolunu tutmuş İraklinin məkrli niyyətlərinin gerçəkləşməsi yolunda bir növ maneə idi.

Fətəli xanın Şəki xanlığına olan yürüş hazırlıqları barədə 17 sentyabr 1768-ci il tarixli məktubu ilə Xarici İşlər Nazirliyinə məlumat verən Qızılyar komendantı Potapov yazırdı ki, Fətəli xan Hüseyn xana qarşı yürüş üçün dağlılardan muzdla qoşun toplayır (Russko-daqestanskie otnoşeniya v XVIII-naçale XIX v., 1988). Hüseyn xan isə öz növbəsində yardım üçün İbrahim xan və İrakliyə müraciət edib. Ağası xanın da onlara qoşulması ilə faktiki olaraq Fətəli xana qarşı yönəlmiş bir ittifaq formalaşmış oldu.

Bununla belə Fətəli xan 1769-cu ilin yayında Hüseyn xanı özünə tabe edə bilir. Şəki xanının müqavimətini qıran Fətəli xanın Qarabağ xanına qarşı hərəkət edəcəyini proqnozlaşdırmaq çətin deyildi. Rusiyanın Səlyandakı konsulu M.Sulyakovun məruzəsində qeyd etdiyi kimi, Quba xanı Hüseyn xandan andlı öhdəlik aldıqdan sonra öz qoşunlarına "gizli əməliyyat"a hazır olmağı əmr etdi və bu əməliyyat çox güman ki, Qarabağ xanlığına qarşı yürüş demək idi (Abdullayev, 1958). Belə ki, Qarabağlı İbrahim xanın Fətəli xana qarşı mübarizə aparan Şirvan hakimlərinə yardım etməsi onların münasibətlərinin qarşıdurma şəkilni almasına səbəb olmuşdu. Bu barədə P.Q.Butkov yazır ki, Fətəli xan üçün Şəki və Şirvandan başqa Qarabağı da fəth etmək zəruri idi (Butkov,1869, c. I).

1770-ci illərin əvvəllərindən Fətəli xanın birləşdirmə siyasətinə qarşı mübarizə aparan qüvvələrin yenidən Şamaxıya yürüş hazırlıqları başlayır. Bu barədə rus zadəgan Andrey Filatov 1773-cü il dekabrın 15-də Qızılyar komendantı L.Ştederə bildirirdi ki, Şəki və Gəncə xanları ilə Ağası xan Şamaxıya gəlmiş, İrakli də Borçalı və Qazax mahallarından topladığı qüvvəni

onlara kömək etmək üçün göndərmişdir. H.Abdullayev bu hadisələri 1773-cü il noyabrın axırları və ya dekabr ayının sonlarına aid edir (Abdullayev, 1965).

Müttəfiqlərin məğlubiyyəti ilə başa çatmış bu döyüş zamanı Avar xanının oğlanları Bulaç Mirzə və Məhəmməd Mirzənin öldürülməsi Avar xanı Məhəmməd Nutsalın Fətəli xandan intiqam almaq üçün böyük qüvvə ilə Cara gəlməsinə səbəb olur. Məhəmməd Nutsal öldürülən qohumlarının qanı müqabilində Fətəli xandan pul təzminatı tələb edir və bundan imtina edəcəyi təqdirdə hücumla hədələyir (Qramotı i druqie istoriçeskie dokumentı XVIII stoletiya, otnosyaşiesya k Qruzii, 1891, T.1).

Bu arada qeyd etmək lazımdır ki, Avar hakimi Nutsal xanın Fətəli xana qarşı yürüşə sövq edilməsində Quba xanı ilə ədavəti olan şirvanlı Ağası xanın da xüsusi rolu olmuşdur. 1774-cü ildə onların birləşmiş qüvvələri Şamaxını ələ keçirirlər. Butkov yazır ki, Akuşa, Tabasaran, Dərbənd və Qubadan 20 minə qədər qoşun toplayan Fətəli xan Şamaxıya doğru hərəkət edir. Döyüşdə məğlub olan Ağası xan qaçıb canın qurtarır (Butkov, 1869, c. II). Nutsal xan isə Şamaxının yuxarı hissəsinə sığınır. Danışıqlar üçün Fətəli xanın çadırına gələn Nutsal xan burada xəyanət nəticəsində öldürülür (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465).

Bu hadisə Cənubi Qafqazın qonşu xanlıqlarının (Şəki, Quba, Şamaxı) torpaqlarına göz dikmiş Dağıstan hakimlərinin Fətəli xana qarşı birləşməsi üçün əlavə əsas verdi. Dağıstan hakimlərinin əksəriyyəti: qazıqumuxlu Məhəmməd Xan, Avar xanı Ömər Xan (Şamaxıda öldürülən Nutsalın oğlu və varisi), Kazanışi hakimi Məhəmməd Dişsiz, Tabasaranlı Rüstəm Kadi və başqaları Qaraqaytaq usmisi Əmir Həmzənin başçılığı altında Fətəli xana qarşı ittifaqda birləşirlər (Leviatov, 1948).

Əmir Həmzənin başçılığı altındakı bu koalisiya qüvvələri Fətəli xanın Şirvanda olmasından istifadə edərək Qubaya yürüş edir. 1774-cü idə Dərbəndlə Quba arasında Gavduşan düzündə tərəflər arasında qanlı döyüş baş verir. Fətəli xan məğlub olaraq Səlyana çəkilir. Buradan Bakı üzərinə yeriyən Əmir Həmzə onu ala bilməyərək Qaraqaytaqa qayıdır. Qubanın idarəçiliyi qazıqumuxlu Məhəmməd xanın əlinə keçir. Bir qədər sonra gizlicə Dərbəndə gələn Fətəli xan iki nəfər nümayəndəsini yardım xahişi ilə Peterburqa göndərdi (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465). Bu hadisə barədə yazan Butkov qeyd edir ki, Fətəli xan başına gələnləri müfəssəl şəkildə izah edərək rus sarayına məruzə etmək, eləcə də himayə və kömək istəmək üçün öz nümayəndəsini Qızılyara göndərdi (Butkov, 1869). 1774-cü ildə Fətəli xan və Tərki şamxalı Qafqaz xəttindəki rus hərbi qüvvələrinin komandanı general de-Medemə müraciət edərək yardım istəyirlər. Fətəli xan De-Medemin başçılığı altında Dərbəndə tərəf hərəkət edən rus hissələrini Darvaq çayının sahilində qarşılayır (Pismo qenerala

de-Medema k qrafu N.İ.Paninu, ot 8-qo aprelya 1777 qoda. AKAK. T I). Butkovun yazdığına görə de-Medem Dərbənddə mayor Kridnerin başçılığı altında 3 muşketyor rotası, 3 eskadron, 600 kazak, 75 topçu, 30 kalmıkdan ibarət qüvvə saxlayır (Butkov, 1869, c. II). Rəqiblərindən qisas almaq məqsədilə rus hissələrinin yardımından istifadə edən Fətəli xan Qaraqaytaq mülkünə yürüş edir Başlı kəndinin yaxınlığında baş verən döyüşdə Usmini məğlub edərək onu dağlara çəkilməyə məcbur edir. Onun mülkünü talan edən Fətəli xan buradan Qazıqumuxa yürüş edir. Kürə mülkündə baş verən döyüşdə Qazıqumuxlu Məhəmməd xanı məğlub edən Fətəli xan Tabasarana gedir. Tabasaranlılarla razılığa gələn Fətəli xan onların tabeçiliyini qəbul edir (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465).

Öz rəqiblırinə qarışı mübarizədə müxtəlif vasitələrdən istifadə edən Fətəli xan Qaraqaytaq Usmisinin qardaşı oğlu Məhəmməd xanın əmisi ilə olan incikliyindən istifadə edərək sonuncunu öz tərəfinə çəkir. Dərbəndin 20 verstliyində onun üçün qala tikdirərək Qubadan 200 ailəni ora köçürür. Qazıqumuxlu Məhəmməd xanın oğlu Şahmərdan bəy də qardaşı Surxayla yaranan inciklikdən sonra Fətəli xana sığınır. Fətəli xan ona Quba mülkünün bir mahalının idarəçiliyini verir. Fətəli xan Usmi Əmir Həmzə ilə apardığı müharibədə onun müttəfiqi olmuş mərhum Tabasaran hakimi Şeyxəlinin oğlanları Məhəmmədhüseyn bəy, Söhrab bəy, Şamxal bəy və Mustafa bəyin yeni hakimlə olan ixtilafı həll etmək üçün bura gələrək hakimi dustaq edub Səlyana göndərir, qardaşlardan ən böyüyü olan Məhəmmədhüseyn bəyi Tabasaranın hakimi təyin edir (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465). Bu arada Fətəli xanın qatı düşməni Əmir Həmzə tərəfindən dustaq edilmiş rus alimi akademik Qmelinin Qaraqaytaqda zindanda ölməsi Rusiyanın Şimali Qafqazdakı komandanlığının bu hakimliklə münasibətlərinin kəskinləşməsinə səbəb olur. Rusiya tərəfi Əmir Həmzəni cəzalandırmaq üçün onun əleyhdarlarından istifadə etmək qərarına gəlir. Bu barədə Butkov yazır ki, general Medemə verilmiş 5 sentyabr 1774-cü il tarixli ali fərmanla ona Usminin Qmelinlə davranışından qüdrətli Dağıstan və Şirvan hökmdarlarına şikayət edərək onlardan Qmelinin əşyalarının və adamlarının Usminin əlindən alınması və bu inadkar və kobud insanı cəzalandırmaq üçün razı salmaq tələb olunurdu (Butkov, 1869, c. II). Bu məqsədlə Rusiyanın bu diyardakı hərbi komandanlığına Rusiyaya sadiq hakimlərin, ilk növbədə Fətəli xan və Tərki şamxalı Murtuzəlinin köməkliyi ilə onun əşyalarının və kağızlarının qaytarılmasına nail olmaq tapşırılır. Bu məqsədlə onların yanına göndərilmiş mayor Fromqolt və Çerkasskiyə tapşırılmışdı ki, onlar Fətəli xanı və Tərki şamxalını nəinki Qmelinin əşyalarının qaytarılmasına və onun Qaraqaytaqda dustaq kimi qalan yoldaşlarının azad olunmasına kömək etməyə, eyni zamanda bu həyasızlığına görə Usmini cəzalandırmağa razı

salmağa çalışsınlar (Raport qenerala de-Medema, ot 24-qo dekabrya 1774 qoda. AKAK. T I). Rusiya təhlükəsinin getdikcə yaxınlaşdığı bir vaxtda Osmanlı dövləti ciddi-cəhdlə Azərbaycan xanlarını aralarındakı ədavətə son qoyaraq, rus-gürcü ittifaqına qarşı birləşməyə çağırırdı. Osmanlı sultanı Fətəli xana xəz palto, bahalı qılınc və 4 min çervon pul göndərək ondan tələb edirdi ki, o, hər vəchlə İraklinin güclənməsinə imkan verməsin, Osmanlı dövlətinin düşmənlərinə qarşı bu diyardakı digər müsəlman hakimlərlə birgə çıxış etsin. Məktubda nə zaman və necə hərəkət etməyin lazım olduğu barədə ona Ərzurum vəziri Süleyman paşa vasitəsilə xəbər veriləcəyi göstərilirdi (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 1795). Süleyman paşanın Fətəli xana göndərdiyi, lakin rusların əlinə keçdiyi məktubunda o, belə təhlükəli məqamda bütün müsəlman hakimlərini bir nəfər kimi ayağa qalxaraq, düşmənə müqavimət göstərməyə çağırır və Osmanlı dövləti tərəfindən hər cür yardımın göstəriləcəyini vəd edirdi (Mustafazadə, 2005). Həmin vaxtlar Xəzər dənizində qəzaya uğramış Skvortsovun gəmisi ilə bağlı yaranmış qalmaqal Fətəli xanla Qafqaz xəttindəki rus qoşunlarının komandanı De-Medem arasında ixtilafa, dolayısı ilə Quba xanının Rusiya ilə münasibətlərinin gərginləşməsinə gətirir. Butkovun yazdığına görə 1775-ci ilin payızında Dərbənd yaxınlığında sahildə milə oturan gəmidən Fətəli xanın göstərişi əsasında 700 min rublluq mal qarət olunmuşdu (Butkov, 1869, c. II). De-Medemin Rusiya hökumətindən Fətəli xanı cəzalandırmaq məqsədilə əlavə qüvvə və səlahiyyətlər xahiş etməsi imperatriçə II Yekaterinanın Qacarlar İranı ilə münasibətləri gərginləşdirmək istəməməsi səbəbindən rədd edilmişdi (Mustafazadə, 2005). Lakin Rusiya hökuməti tərəfindən De-Medem general Yakobi ilə əvəzlənməklə bu hadisədə günahkar bilinən mayor Kridner yarım il müddətinə sıravi rütbəsinə endirilmişdi. Dərbənddəki rus hissələrinin oradan çıxarılması üçün göndərilmiş mayor Fromqoltə isə tapşırılmışdı ki, o, Fətəli xanın indidən etibarən imperatorun himayə və qayğısından məhrum edildiyini ona çatdırsın (Pismo qenerala de-Medema k qrafu N.İ.Paninu, ot 8-qo aprelya 1777 qoda. AKAK. T I).

## 2. XVIII əsrin 80-cı illərində Fətəli xanın xarici siyasət fəaliyyəti

XVIII əsrin 80-ci illərin əvvəllərindən bir tərəfdən əvvəlki müttəfiqlər İbrahimxəlil xanla II İrakli arasında mövcud olan ittifaqın çat verməyə başladığı, digər tərəfdən də Fətəli xanla gürcü hakimi arasındakı ziddiyyətlərin kəskinləşməsi müşahidə olunur. Buna səbəb isə 1782-ci ilin avqustunda gürcü knyazları – Kartli-Kaxetiya taxtının varisi knyaz Aleksandr Bakarov və Kartli çarı Vaxtanqın nəvəsi Aleksandr Amilaxvarinin yardım xahişi ilə Fətəli xanın yanına gəlməsi olur (Butkov, 1869, c. II). Belə ki, II İrakliyə qarşı 1765-ci ildə təşkil etdiyi uğursuz qiyamdan sonra 1769-cu ildə Rusiyaya qaçmış Aleksandr Amilaxvari ilə 1782-ci ildə Şimal Qafqaza, Tərki şamxalının yanına getmiş, buradan da şamxalın məsləhəti ilə həmin vaxt gürcü

çarı ilə münasibətləri gərgin olan Fətəli xana pənah gətirmişdi (Butkov, 1869, c. II). Özlərini gürcü taxtının qanuni varisləri hesab edən şahzadələr məqsədlərinə çatmaqdan ötrü II İrakli ilə yaxşı münasibətlərdə olmayan Fətəli xanın yardımına bel bağlayırdılar. Lakin Rusiyadan çəkinən Fətəli xan bu məsələdə çox ehtiyatlı hərəkət edərək, məsələ haqqında II Yekaterinaya məlumat vermiş, sonradan Qafqazdakı rus hissələrinin komandanı general P. S. Potyomkinin tələbi ilə həmin knyazları II İrakliyə təhvil vermişdi (Butkov, 1869, c. II). Həmin hadisədən İraklinin əzəli rəqibi Fətəli xanla rusların arasını vurmaq məqsədilə istifadə etmək cəhdi sonda bir nəticə verməmişdi. II İrakli 1782-ci ilin martın 26-da və sonrakı günlərdə P.S.Potyomkinə yazdığı məktublarında Fətəli xanın Qarabağa hücumu zamanı gürcü tacirlərinin də xeyli zərər çəkdiyindən şikayətlənərək, Quba xanının ünvanına hər cür xoşagəlməz ifadələr işlətmiş, onu rusların gözündən salmağa çalışmışdı (Mejkavkazskie politiçeskie i torqovıe svyazi Vostoçnoy Qruzii, 1980, s. 56-57).

1783-cü il iyunun 24-də Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsinə keçməsi barədə Georgiyevsk traktatına əsasən II İraklinin güclü müttəfiq əldə etməsindən sonra onun Azərbaycan xanlıqlarına münasibətdə siyasəti daha təcavüzkar şəkil alır.

İrakli 1784-cü ildə Yusuf bəylə general de-Medemə göndərdiyi məktubunda göstərirdi ki, Fətəli xan onun mülklərinə yürüş etməyə hazırlaşır. De-Medem də öz növbəsində Yusuf bəyi Fətəli xanın yanına göndərərək onu bu yürüşdən çəkinməyə çağırır. Fətəli xan nümayəndəsi İbrahim bəylə 1784-cü ildə general de-Medemə göndərdiyi məktubunda göstərirdi ki, İrakli və İbrahim xan onun Ərdəbil səfərindən qorxuya düşdükləri üçün ona qara yaxırlar. O, Rusiyaya sadiqdir və heç vaxt onun himayəsi altında olan ərazilərə hücüm etmək niyyəti olmayıb (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 1795, s. 544-545). Fətəli xan öz növbəsində Qafqazdakı rus ordularının komandanlığına məktubunda İraklinin Azərbaycan torpaqlarına münasibətdəki xəbis niyyətindən, İrəvan və Gəncə xanlıqlarına olan təzyiqlərindən şikayətlənirdi (Mustafazadə, 2005). Lakin qeyd etmək lazımdır ki, bəhs olunan dövrdə Rusiyaya münasibətdə ölçülüb biçilmiş siyasət yürüdən İbrahimxəlil xanla Fətəli xan ayrılıqda da olsa gürcü hakiminin daha zəif Azərbaycan xanlıqlarına müdaxiləsinin qarşısını ala bilmişdilər.

Fətəli xanın bölgədə daha genişmiqyaslı siyasi məqsədlər güddüyünü vurğulayan P. Q. Butkov yazır: "*Bu dövrdə Bakıya özünü Səfəvi hökmdarı şah Hüseynin nəvəsi kimi təqdim edən təqribən yetmiş yaşlı bir şəxs – Abbas Mirzə – gəlmişdi. Fətəli xan onu Səfəvi sülaləsinin qanuni varisi kimi tanımış, bu iddianı açıq şəkildə dəstəkləmiş və 1783-cü ilin aprel ayında Rusiya imperiyasının müvafiq dövlət orqanlarına ünvanladığı məktubda da bu mövqeyini bildirmişdi.*

*Həmin məktubda qeyd olunurdu ki, bir zamanlar Rzaqulu Mirzə tərəfindən Səfəvi nəslinə qarşı həyata keçirilən qətliam zamanı Abbas Mirzə bəzi nüfuzlu şəxslər tərəfindən xilas edilmiş və həmin vaxtdan etibarən gizli şəkildə yaşamışdır*" (Butkov,1869, c. II).

Daha sonra P.Q.Butkov Fətəli xanın şəxsi siyasi maraqlarını legitimləşdirmək məqsədilə özünü Səfəvi sülaləsinin qanuni varisi kimi təqdim edən Abbas Mirzədən alət kimi istifadə edərək hərbi qüvvələr toplayaraq, 1784-cü ilin yazında İranın mərkəzi əyalətlərinə (Azərbaycanın Cənub torpaqlarına-A.Ə.) doğru hərbi yürüş təşkil etdiyini bildirir. (Butkov, 1869, c. II). Həmin ilin avqustunda o, Ərdəbil və Meşkini nəzarət altına aldı. Qeyd olunan şəhərlər əvvəllər köçəri şahsevən tayfalarının xanları tərəfindən idarə olunurdu. Fətəli xan bu ərazilərdə öz nüfuzunu gücləndirmək üçün sadiq sərkərdələrini və inzibati nümayəndələrini təyin etmişdi (Butkov,1869, c. II).

P. Q. Butkov bu kimi ekspansiv təşəbbüslərin, bir tərəfdən Fətəli xanın bölgədəki təsir dairəsini genişləndirsə də, digər tərəfdən, Rusiya imperiyasının strateji maraqları ilə kəskin şəkildə ziddiyyət təşkil etdiyini vurğulayaraq bildirir ki, general-leytenant Potyomkin Fətəli xandan hərbi qüvvələrini buraxmasını tələb etdi. Eyni zamanda knyaz Potyomkin də 1785-ci ilin fevralında Fətəli xana ünvanladığı rəsmi məktubda onun həyata keçirdiyi siyasi xəttin imperiyanın maraqları ilə ziddiyyət təşkil etdiyini açıq şəkildə bəyan etmiş və bu siyasətin perspektiv nəticələri ilə bağlı xəbərdarlıq etmişdi (Butkov,1869, c. II). Həmçinin, eyni dövrdə Avar hakimi Ömər xan və Usmi də Fətəli xana qarşı mümkün hücumlarla hədələyərək onun əsas mülklərini təhlükə altına almışdılar. Bütün bu təzyiqlər və beynəlxalq münasibətlər sistemindəki gərginlik Fətəli xanı geri çəkilməyə məcbur etdi. Onun Ərdəbil və Meşkində təyin etdiyi məmurlar yerli qüvvələr tərəfindən qovuldu, Abbas Mirzə isə gözlənilmədən ortadan yoxa çıxdı və sonrakı taleyi qeyri-müəyyən olaraq qaldı (Butkov,1869, c. II). XVIII əsrin 70-80-ci illəri həm də Azərbaycanı vahid dövlət şəklində birləşdirmək uğrunda mübarizə aparan qubalı Fətəli xanla qarabağlı İbrahimxəlil xan arasında gedən daxili ara mübarizəsi dövrüdür. Bu iki feodal hakim arasında düşmən münasibətlərinin yaranmasında Azərbaycan xanlıqlarına münasibətdə məkrli niyyətləri olan II İraklinin xüsusi rolu olmuşdur. O, Azərbaycan xanlıqlarına münasibətdə məkrli planlarının reallaşması yolunda ən ciddi təhlükə, əngəl hesab etdiyi iki qüdrətli Azərbaycan hökmdarının – İbrahimxəlil xanla Fətəli xanın yaxınlaşmasına mane olmağa çalışmış, nəticədə İbrahimxəlil xanı öz tərəfinə çəkməyə nail olmuşdu. Getdikcə güclənməkdə olan Fətəli xandan ehtiyat edən İbrahimxəlil xan Quba xanının 1770-ci ildə ona etdiyi ittifaq təklifini rədd edərək, Fətəli xana qarşı II İrakli ilə birləşir (Azərbaycan-Gürcüstan münasibətləri tarixi, 2013). Fətəli xanın Qarabağa ilk yürüşü məhz həmin ilin aprelin əvvəllərində baş verir. 1770-ci ilin aprelin 12-də Rusiyanın Ənzəli şəhərindəki konsulu

Boqolyubov Rusiya Xarici Əlaqələr Kollegiyasına Fətəli xanın Kür çayını keçdiyini və Qarabağın kəndlərini xarabalığa çevirdiyini bildirirdi. Onun yazdığına görə Fətəli xan Şuşanı ələ keçirdikdən sonra Təbrizə, hətta bilavasitə Kərim xanın öz mülklərinə qədər irəliləmək niyyətində olduğu barədə şayiələr yayılıb (Mustafazadə, 2005). Fətəli xanın həm Qarabağ, həm də Kartli-Kaxetiya hakiminin iddia etdikləri Gəncə və İrəvanı öz tərəfinə çəkməyə müvəffəq olması ona qarşı İbrahimxəlil xanla İraklinin növbəti taktiki alyansına gətirib çıxarır. Nəticədə tərəflər arasında 1779-cu ildə baş vermiş iki döyüşdə Fətəli xanı məğlub etməyi bacaran İbrahimxəlil xan və II İraklinin ittifaqı Gəncəni işğal edir (Qarayev, 2010). XVIII əsrin 80-ci illərində Tərki şamxallığını, Şamaxı xanlığını, Bakı xanlığını və digər feodal dövlətləri ətrafında birləşdirən qubalı Fətəli xandan ehtiyat edən İbrahimxəlil xanın Gürcü çarlığı ilə yaxınlaşmasının arxasında bəlli motivlər dururdu. Yəni, Gəncənin gürcü qoşunları ilə birlikdə işğalı, II İrakli ilə taktiki alyans Qarabağ xanının Fətəli xanın birləşdirmə siyasətinə qarşı geniş fəaliyyətinin bir epizodu idi. Əslində İbrahimxəlil xan da heç bir qarış torpağını belə Gürcü hakiminə güzəştə getmək niyyəti yox idi. Digər tərəfdən həmin ilin əvvəllərində Fətəli xanın Qarabağa hücumu zamanı II İraklinin oğulları Georgi və Davidin başçılığı altında böyük bir dəstəni İbrahimxəlil xanın köməyinə göndərməsi də (Butkov, 1869, c. II) onun Gürcü hakimi ilə yaxınlaşmasına təsir göstərmişdi.

1784-cü ildə Qarabağa yürüş edən Fətəli xan Şuşaya hücum edə bilməyib yalnız xanlığın bəzi mahallarını talan edərək geri qayıtmalı olmuşdu. Bu barədə Fətəli xan Potyomkinə yazdığı məktubunda bildirirdi ki, onun mülklərinə hücum edən Avar xanı Ömər xan (İbrahimxəlil xanın qaynı və müttəfiqi) Potyomkinin Fətəli xanın mülklərindən qüvvələrini geri çəkməsi barədəki xəbərdarlığından sonra Quba xanlığının ərazisini tərk etmişdir. Buna görə də Potyomkinə təşəkkürünü bildirən Fətəli xan İraklinin üzərinə hazırlanan yürüşünü Potyomkinin Gürcüstana yürüş etməmək barədəki xəbərdarlığından sonra bu səfərdən vaz keçdiyini, əvəzində isə İbrahim xanı cəzalandırdığını, onun mülklərinə basqın edərək talan etdiyini bildirirdi (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 1795).

1787-ci ilin dekabrında Kür çayı sahilində baş vermiş döyüş həm II İrakli – Fətəli xan, həm də İbrahimxəlil xan – Ömər xan ittifaqı üçün hədsiz itkilər hesabına başa gəlməklə, nəticəsiz bitdi (Leviatov, 1948, s. 39). Onların növbəti 1788-ci ildə Qarabağa planlaşdırdıqları yeni hücum cəhdinin qarşısı isə Ömər xanın Ağsuya yürüşü ilə alınır. Bu zaman Avar xanı tərəfindən Ağsunun 9 ay mühasirədə saxlanması Fətəli xanı da Qarabağa planlaşdırılan hücumdan yayındırır. O, yalnız rusların hadisələrə müdaxiləsindən sonra Avar xanının xeyrinə müəyyən güzəştlərə getməklə Ömər xanın mühasirədən əl çəkməsinə nail olur (Mustafazadə,

2005).

İbrahim xanın əmisindən inciyərək Fətəli xana sığınmış qardaşı oğlu Mehrəli bəyin Şirvanda Ağası xanın böyük oğlu Əhməd bəy tərəfindən öldürülməsindən sonra Fətəli xan tərəfindən cənazənin Qarabağa göndərilməsi tərəflər arasında münasibətlərin nizama düşməsinə səbəb olur. Buna cavab olaraq İbrahim xan öz qüvvələrini Ağası xana qarşı Fətəli xanın yardımına göndərmişdir (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465). İbrahimxəlil xanla münasibətləri korlanan İrakli bütün diqqətini rəqibinə qarşı koalisiya təşkil etməyə yönəldərək bu məqsədlə 1789-cu ilin yanvarında Şəmkir çayının sol sahilində qubalı Fətəli xan, şəkili Məhəmməd Həsən xan və gəncəli Cavad xanla görüşür. Şəmkir görüşündə Qarabağ üzərinə birgə yürüş, tərəflər arasında bölgədə təsir dairələrinin müəyyənləşdirilməsi məsələləri müzakirə edilir. Qərara alınır ki, Gürcü çarı Cənubi Qafqazda, Fətəli xan isə Cənubi Azərbaycanda asayişi qorusun (Mustafazadə, 2005). Görüş ərəfəsində itaət əlaməti olaraq, qala açarlarını Fətəli xana hədiyyə edən Cavad xana bunun müqabilində Fətəli xanın köməkliyi ilə Şəmşəddil mahalının Gəncəyə qaytarılması haqqında İraklinin razılığı alınır (Markova, 1966). Əslində İraklinin bu güzəşti taktiki səciyyə daşıyırdı və Qarabağa ehtimal olunan yürüşlə əlaqədar idi. Lakin Fətəli xanın qəfil vəfatı bu razılaşmanın həyata keçməsinə mane olur. Düzdür, bu müəmmalı xəstələnmə və ardınca qəfil ölümlə bağlı müxtəlif fərziyyələr var. Hətta həmin görüşdə Fətəli xanın zəhərlənməsi də ehtimal olunur.

Burada Fətəli xanın fəaliyyəti ilə bağlı bir məqama xüsusi olaraq diqqət yetirmək lazımdır ki, XVIII əsrin 80-ci illərinin sonuna doğru öz qüdrətinin zirvəsinə çatmış Quba xanı Fətəli xan Rusiya və onun təbəəliyini qəbul etmiş II İrakli ilə münasibətləri ehtiyatlı şəkildə davam etdirirdi. 1787-ci ilin martında Fətəli xanın nümayəndəsi Mirzə Sadıqın Tiflisə səfəri zamanı tərəflər arasında ittifaqın bağlanması, eləcə də Fətəli xan tərəfindən 1787-ci il iyunun əvvəllərində Rusiyanın himayəsinə qəbul edilməsi xahişi ilə nümayəndəsi Mirzə Sadıqı Potyomkinin yanına göndərməsi (Markova, 1966) də məhz bu ehtiyatlı siyasətdən irəli gələn addım kimi qiymətləndirilməlidir. Rusiyanın İrandakı konsulu Tumanovskinin Mirzə Samvel və Novruzəli vasitəsi ilə Bakı xanı tərəfindən rus tacirlərinin sıxışdırılmasından, onlardan yüksək rüsumların alınmasından şikayətinə cavab olaraq Tumanovskiyə yazdığı məktubunda Rusiyaya olan sədaqətini bir daha izhar etməklə bu problemin aradan qaldırılacağını bildirməsi də bu ehtiyatlı siyasətindən irəli gəlirdi (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 1795).

Fətəli xanın Rusiya imperiyası ilə qurduğu diplomatik əlaqələri onun Cənubi Qafqaz regionunda siyasi nüfuzunu möhkəmləndirmək və xarici himayə vasitəsilə strateji hədəflərinə

çatmaq məqsədi ilə həyata keçirdiyi sistemli siyasətin tərkib hissəsi kimi dəyərləndirən akademik P. Q. Butkov yazir:

"*Şübhə doğurmur ki, Fətəli xan Rusiya imperiyasının siyasi himayəsini əldə etməyə can atırdı. Bununla yanaşı, o, status və imtiyazlar baxımından Kartli-Kaxetiya çarı II İrakli ilə eyni səviyyədə qiymətləndirilməsini tələb edirdi. Xan, həmçinin, iki piyada polkunun bölgəyə göndərilməsini istəyirdi; qeyd olunan hərbi dəstəyin onun İran taxt-tacına iddialarını reallaşdırmaq yönündəki ambisiyalarına xidmət edəcəyi nəzərdə tutulurdu*" (Butkov,1869, c. II, s. 276-277).

Onun belə siyasəti bəzən tarixşünaslıqda yanlış olaraq Fətəli xanın Rusiya meyilli hakim kimi təqdim olunmasına səbəb olmuş, Quba xanının yaranmış son dərəcə mürəkkəb geosiyasi durumda bu region uğrunda mübarizə aparan iri güclərin arasında manevr etmək siyasəti hansısa bir dövlətə meyilli siyasət kimi təqdim olunmuşdur. Bu kontekstdə Osmanlı sultanının Fətəli xana ünvanladığı rəsmi məktubu xüsusilə diqqətəlayiqdir. Belə ki, 1783-cü ilin may ayında göndərilmiş həmin sənəddə Quba xanının Osmanlı imperiyasına sadiqliyini diplomatik yazışmalar vasitəsilə ifadə etdiyi bildirilir. Bununla əlaqədar olaraq, sultan Fətəli xanın siyasi davranış və mövqeyinin digər Dağıstan hakimləri üçün nümunəvi xarakter daşımalı olduğunu vurğulayırdı. (Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 1795).

**Sonuç**

Aparılmış tədqiqata yekun vuraraq belə qənaət gəlmək olar ki, XVIII əsrin ikinci yarısında Qafqazın feodal mülkləri o dövrdə Rusiya və Osmanlı imperiyaları arasında gedən geosiyasi qarşıdurmaya cəlb olunmuşdular. Qafqazın müstəqil mövqedən çıxış edə biləcək daha böyük feodal hökmdarlarının şəxsi ambisiyaları və vahid xarici siyasət mövqeyini inkişaf etdirə bilməmələri faciəli hadisələrə, məhz qanlı daxili müharibələrə səbəb oldu və bu qarşıdurmalar Rusiyanın Osmanlı imperiyası üzərindəki müharibədə qələbəsindən sonra Qafqaz regionunda mövqelərinin möhkəmlənməsinə kimi davam etdi.

Azərbaycan xanlarının içərisində qüdrətinə görə ən güclüsü olan Fətəli xan Şərqi Zaqafqaziyada hökmranlıq uğrunda mübarizədə Azərbaycan torpaqları ilə bağlı məkrli niyyətləri olan Kartli-Kaxetiya çarı II İraklinin və bəzi Dağıstan feodal hakimlərinin əsas rəqibinə çevrilmişdi. Onun birləşdirmə siyasəti bəzi Azərbaycan xanlarının da ciddi müqaviməti ilə rastlaşdı. Fətəli xan bu istiqamətdəki siyasətinin həyata keçirilməsi zamanı son dərəcə mürəkkəb geosiyasi vəziyyətdə, iri bölgə dövlətlərinin bu diyarda toqquşan maraqları arasında manevr etmək məcburiyyətində qalmışdı. Bu zaman Rusiyanın himayəsinə daxil

olmaqla onun timsalında himayədar əldə etmiş II İraklinin Azərbaycan torpaqları ilə bağlı bəd niyyətlərinin qarşısı məhz Fətəli xanın qəti və ardıcıl hərbi-siyasi fəaliyyəti ilə alınmışdı.

P. Q. Butkovun Qubalı Fətəli xana dair qeydləri də onun yalnız lokal səviyyəli bir feodal hakim kimi deyil, eyni zamanda siyasi baxımdan uzaqgörən, çevik və güclü lider keyfiyyətlərinə malik şəxsiyyət kimi xarakterizə olunduğunu göstərir. Müəllif Fətəli xanı geniş dünyagörüşünə sahib, cəsarətli, ehtiyatlı, dözümlü və daim fəallıq nümayiş etdirən bir siyasi fiqur kimi təsvir edir. Müəllif onun siyasi strategiyasının təkcə Şirvan və Qarabağ kimi mühüm əraziləri nəzarət altına almaqla məhdudlaşmadığını, Fətəli xanın, eyni zamanda, bütün İranı idarə etmək kimi genişmiqyaslı və iddialı hədəfləri olduğunu bildirir.

Ehtimal etmək olar ki, Fətəli xan planlaşdırdığı bütün hədəflərini gerçəkləşdirsəydi, o zaman artıq XVIII əsrin sonlarına doğru dünyanın siyasi xəritəsində və geosiyasi qarşılıqlı təsir meydanında qüdrətli və vahid Azərbaycan dövləti meydana gələcəkdi. Lakin tarixi proseslərin axarı, eləcə də daxili və xarici amillərin təsiri nəticəsində bu ideya reallığa çevrilmədi. Dövrün mürəkkəb beynəlxalq münasibətlər sistemi, regionda mövcud olan geosiyasi maraqların toqquşması, eləcə də Cənubi Qafqazın parçalanmış siyasi strukturu, daxili siyasi sabitsizlik və yerli hakimlər arasında koordinasiyanın olmaması Fətəli xanın genişmiqyaslı siyasi məqsədlərini tam şəkildə reallaşdırmasına, həmçinin Azərbaycanın tarixi inkişaf trayektoriyasını dəyişdirə biləcək strateji missiyasını tam şəkildə yerinə yetirməyə imkan vermədi.

**Kaynaklar**

Abdullayev, Q.B. (1965). *Azerbaydjan v XVIII veke i vzaimootnoşeniya eqo s Rossiey.* İzd-tvo Akad Nauk Azerb SSR.

Abdullayev, Q.B. (1958). *İz istorii Severo-vostoçnoqo Azerbaydjana v 60-80-x qq. XVIII v.* İzd-tvo Akad Nauk Azerb SSR.

*Azərbaycan-Gürcüstan münasibətləri tarixi (XVIII əsr-XXI əsrin əvvəlləri).* (2013). Şərq-qərb nəşriyyat evi.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 465.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi. Fond 1, siy. 3, iş 1795.

Bakixanov, A. (1991). *Qyulistan-i İram.* Redakçiya, kommentarii, primeçaniya i ukazateli akad. Z. Buniyatova. İzd-tvo Elm.

Butkov, P. Q. (1869). *Materialı dlya novoy istorii Kavkaza s 1722po 1803.* V 3-x çastyax. ç.I, SPb. Tipoqrafiya imperatorskoy Akademii Nauk.

Butkov, P. Q. (1869). *Materialı dlya novoy istorii Kavkaza s 1722po 1803.* V 3-x çastyax. ç.II, SPb. Tipoqrafiya imperatorskoy Akademii Nauk.

Qarayev, E.T. (2010). *İrəvan xanlığı (1747-1828).* Avropa nəşriyyatı.

*Qramotı i druqie istoriçeskie dokumentı XVIII stoletiya, otnosyaşiesya k Qruzii.* (1891). T.1, s 1768 po 1774 qod. Pod red. A. A. Çaqareli, SPb. Tipoqrafiya B. Kirşbauma.

Leviatov, V.N. (1948). Oçerki iz istorii *Azerbaydjana v XVIII veke*. İzd-tvo Akad Nauk Azerb SSR.

Markova, O.P. (1966). *Rossiya, Zakavkaze i mejdunarodnıe otnoşeniya v XVIII veke.* izd-tvo. Nauk.

*Mejkavkazskie politiçeskie i torqovıe svyazi Vostoçnoy Qruzii (koneç 60-x- naçalo 90-x qodov XVIII v.).* (1980). Dokumentı i materialı. Materialı podobral i podqotovil k peçati V.N.Qamrekeli. vıp 1. Tbilisi, izd-tvo Meçniereba.

Mustafazadə, T.T. (2005). *Quba xanlığı.* Elm.

*Pismo qenerala de-Medema k qrafu N.İ.Paninu, ot 8-qo aprelya 1777 qoda.* AKAK. Tom I, səh. 90.

*Raport qenerala de-Medema, ot 24-qo dekabrya 1774 qoda.* AKAK. Tom I, səh. 89.

*Russko-Daqestanskie otnoşeniya v XVIII-naçale XIX v.* (1988). Sbornik dokumentov. (pod red. V. Q. Qadjieva). Nauka.